# Ali Rəhbər Həzrət Zəhranın (s.ə) şəhadətinə həsr olunmuş matəm mərasimində iştirak etdi - 8 /Feb/ 2019

İslam İnqilabının Ali Rəhbərinin iştirakı ilə İmam Xomeyni (r.ə) adına hüseyniyədə Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət gecəsinə həsr edilmiş matəm mərasimi keçirildi.

Bir qrup hökumət rəsmisi və xalqın müxtəlif təbəqələrindən olan minlərlə insanın iştirak etdiyi bu mərasimdə çıxış edən Höccətül-İslam vəl-müslimin Rəfii Həzrət Siddiqe-yi-Tahirənin (s.ə) həyat tərzinə xas olan iqtisadi əzmkarlığın yönlərindən danışaraq dedi: "İslam iqtisadiyyatı mənəviyyat, əxlaq, dayanmadan işləyib çalışmaq və fədakarlıq prinsiplərinə, eqoizm və şəxsi mənafe güdülməməsi əxlaqına əsaslanır".

Mərasimin spikeri Həzrət Fatimeyi-Zəhranın (s.ə) həyatının səbr, sadəlik və qənaət xüsusiyyətləri ilə çulğalaşdığını dedi: "Əgər cəmiyyət haqq yolda əzmkarlıq göstərsə, Allahın nemətlərindən faydalanar".

Mərasimdə cənab Sələhşur Fatimeyi-Zəhranın (s.ə) başına gələn müsibətlərdən danışaraq mərsiyə dedi.

Fatimiyyə günlərinə həsr edilmiş mənəvi matəm mərasimlərinin sonuncu gecəsi 09 fevral 2019-cu il tarixində, şənbə günü gecə İmam Xomeyni (r.ə) adına hüseyniyədə keçiriləcək.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**